Aqrar Xidmətlər Agentliyi

# Pomidor Lağımlayıcı Güvəsi
## (Tuta Absoluta Meyrick)



088-588
axa.gov.az

# Zərərli orqanizm haqqında

Pomidor lağımlayıcı güvəsinin yetkin fərdləri uzun, nazik olub, üst qanadları gümüşüboz və ya qəhvəyi rəngə çalır. Ön qanadları dar, gümüşü boz (və ya açıq qəhvəyi) üzərində müxtəlif ölçülü xarakterik nöqtəşəkilli ləkələr var. Sürfələr dörd yaş mərhələsi keçirir. Yumurtadan təzə çıxmış sürfələr krem rəngində olub baş hissəsi tünddür. Sürfələrin üst tərəfində olan tünd rəngli lent pomidor lağımlayıcı güvəsinin sürfəsinin təyinedici əlamətlərindən biridir. Sürfələrin inkişaf müddəti xarici mühit amillərindən asılı olaraq 13-15 gün çəkir.

# Mübarizə tədbirləri

**Karantin mübarizə:** İlk növbədə karantin tədbirlərinə ciddi əməl edilməlidir.

**Aqrotexniki mübarizə:**

Sirayətlənmiş bitki hissələri vaxtaşırı yığılmalı,sahədən çıxarılmalı və xüsusi ayrılmış yerlərdə məhv edilməlidir.
Pomidor sahəsinə yaxın ərazilərdə və ya sahə daxilində alaq otları mütəmadi təmizlənməlidir
Məhsul yığımından sonra sahə bitki qalıqlarından təmizlənməli və dərin şumlama aparılmalıdır.
İstixanaların qapısı iki qatlı olmalı, giriş və havalandırma sistemi tor ilə örtülməlidir.

**Biotexniki mübarizə:** Zərərvericinin aşkar edildiyi ilkin ocaqlarda müxtəlif tipli feremon tələlərdən istifadə edilir. Tələlər monitorinq məqsədilə 1-2 tələ/ha, mübarizə məqsədilə isə zərərvericinin sayından asılı olaraq 20-40 tələ/ha tətbiq edilir. Tələlər yerdən 20-30 sm yüksəklikdə bərabər aralıqlarla yerləşdirilir.



Zədəsi